**TƏRANƏ XƏLİLOVA**
**Filologiya üzrə fəlsəfə doktoru, dosent**
**Azərbaycan Dövlət İqtisad Universitenin dosenti (UNEC)**
**Y.Mürsəlov küç bina 3 mən 23**
**txalilova1962@gmail.com**

# TERMİN YARADICILIĞINDA ŞƏKİLÇİLƏRDƏN İSTIFADƏ

## XÜLASƏ

Dil müasir ictimai inkişafa özünəməxsus barometr kimi xidmət edir. Yəni, dildə həmin anlayışı ifadə edən vahidləri müəyyənləşdirdikdə yeni ifadələrin əmələ gətirilməsi problemindəki çətinliklər praktik cəhətdən aradan qaldırılmış olur. Lüğət tərkibinin Azərbaycan dilinin öz terminləri ilə ifadə olunması Azərbaycan dilində elmi terminologiyanın inkişafına təkan verir. Ona görə də yeni anlayışların ifadəsi üçün terminlər yaradılarkən ən əvvəl ana dilinin lüğət tərkibinə nəzər salmaq, onun daxili imkanlarından səmərəli istifadə etmək lazımdır. Elmi terminologiyanın yaradılması üçün Azərbaycan dili hər cür imkana malikdir. elm və texnikanın sürətli inkişafı ilə əlaqədar olan informasiya həmin sahəyə aid anlayışları ifadə edən terminlərin yaranmasına çox mühüm bir təkan verir.

Terminologiya elmin, texnikanın, istehsalatın, sənaye və kənd təsərrüfatının, ədəbiyyat və incəsənətin, iqtisadiyyatın, ictimai-siyasi həyatın müxtəlif sahələrinə məxsus anlayışları dəqiq və düzgün ifadə edən xüsusi funksiyalı leksikanı əhatə edir.

Terminologiya ümumxalq leksikasının ən fəal, ən dəyişkən, artan, təkmilləşən, yeniləşən hissəsidir. Müasir sosial-iqtisadi inkişaf, elmi-texniki tərəqqi, mədəni inqilab, istehsalın intensivləşdirilməsi yeni elmi anlayışların, yeni elmi fikirlərin inkişafına, yaranmasına səbəb olur. Bu da, şübhəsiz, dilin terminoloji leksikasının dəyişməsinə, yeniləşməsinə, artmasına təsir edir.- Elmi anlayışların təbiətini və mənasını dəqiq və aydın ifadəetmə baxımından terminologiyaya iki cəhətdən xüsusi diqqət yetirilməlidir:

mövcud məfhumları ifadə edən terminlərin yenidən nəzərdən keçirilməsi;

yeni məfhumların məna və təbiətinə uyğun terminlərin seçilməsi

**Açar sözlər:** termin, elm, texnika, dil, struktur

Terminoloji leksikanın özünəməxsusluğunu şərtləndirən amillərdən biri də ayrı-ayrı terminlərin ifadə etdiyi anlayışların müasirliyi və aktuallığı ilə əlaqədardır. (2, 177-178). Yeni yaranan məfhumlar hökmən müasir həyatın, elm və texnikanın tələbi ilə meydana gəlir və konkret əşya, hadisə və ya prosesin adlandırılmasına xidmət edir. Odur ki, termin kimi müəyyənləşən sözün ümumxalq ədəbi dilinə keçməsi və yaxud dildə mövcud olan hər hansı bir sözün eyni anlayış əsasında terminləşməsi tamamilə qanunauyğun hal almalıdır. Yeni anlayışların meydana gəlməsi elmi axtarış və dilin inkişaf diaiektikası ilə bilavasitə bağlı olduğundan, belə bir fikir də təkzibedilməzdir ki, ifadə olunan hər hansı bir məfhum, əşya və ya predmet, hadisə, proses və anlayışın aktuallığı terminin ümumi ədəbi dil materialına çevrilməsinə ciddi təsir göstərir. Başqa sözlə desək, termin və ümumi ədəbi dil əlaqəsi şüur və dil bağlılığı qədər mühümdür. Məhz həmin qarşılıqlı əlaqənin nəticəsində milli ədəbi dil təşəkkül tapır, inkişaf edir və zənginləşir.

Terminlər elmin müxtəlif sahələrinin təşəkkülündə əvəzsiz rol oynayır, çünki onlar müəyyən bir elmi anlayışın düzgün qavranılmasında, anlaşılmasında, fikrin dəqiq ifadə və dərk edilməsində, şifahi və yazılı nitqin aydın və dəqiq olmasında, təlim və tədris prosesində, yazı

mədəniyyətinin inkişafında, sabitləşməsində böyük rol oynayır. Buna görə də, terminlərin yaranmasında, yazılmasında (orfoqrafiyasında) və işlədilməsində vahid qayda və prinsiplər gözlənilməli, onların fonetik tərkib və mənaca müxtəlifliyinə yol verilməməlidir, çünki terminlərin müxtəlif fonetik tərkiblə eyni məna ifadə etməsi və ya eyni fonetik tərkibli terminlərin müxtəlif mənalar bildirməsi elmi-texniki dildə hərc-mərclik yaradar, qarışıqlığa, fikir dolaşıqlığına səbəb olar, onların öyrənilməsi və mənimsənilməsini çətinləşdirər.

Terminlər adlandırdıqları məfhumlara, anlayışlara, əşya və hadisə adlarına uyğun olmalı, mənaca dəqiq və anlaşıqlı, müəyyən zaman kəsiyində sabit olmalı və sistem əmələ gətirməlidir. Onların dəqiqliyi, anlaşıqlı, sadə və aydın olması, müəyyən zaman müddətində sabit qalması ümumxalq qayğısına və dövlət siyasətinə söykənməlidir, çünki cəmiyyətin intellektual (əqli), iqtisadi, mədəni-mənəvi, ictimai və siyasi tərəqqisində, inkişafında terminlərin rolu əhəmiyyətlidir.

Terminoloji leksika bir elm sahəsində işlədilən terminlərin sistemi, toplusudur. Hər termin sistemi konkret bir elm sahəsinin məfhumlar sistemini əks etdirir. Elmi dilin leksikasında terminlər əsas spesifik vahidlərdir. Terminlər üçün iki cəhət səciyyəvidir: 1) qeydedilmə (müxtəlif tipli lüğətlərdə); 2) işlədilmə (məqalə və elmi əsərlərdə) (

Terminlərin yaranmasını şərtləndirən amillər arasında tarixi şərait (dildənkənar faktor) mühüm rol oynayır. Tarixi şərait əvvəlcə məfhum və anlayışı doğurur və sonra onlar sözə, həmçinin terminə çevrilir. Beləliklə, anlayışın əlamətləri terminin quruluşunda əks olunur, terminoloji anlayışlar isə denotatın qavranışı, şərhi və onu adlandıran leksik vahidin elmi refleksi yolu ilə qəbul olunur

Azərbaycanda elm və texnikanın inkişafı ədəbi dilimizdə elmi-texniki terminlərin yaranmasına və elmi terminologiyanın zənginləşməsinə səbəb olmuşdur.

Hazırkı dövrdə elmi-texniki tərəqqi əmək məhsuldarlığının yüksəldilməsini nəzərdə tutduğuna görə, o, təbiəti etibarı ilə ictimai-iqtisadi quruluşla bağlıdır. Yəni, elmi-texniki tərəqqi dedikdə, müstəqil Azərbaycan dövlətinin həm mütərəqqi texnika və terminologiyaya malik olmaqla iqtisadiyyatın strukturunun təkmilləşməsi, həm də ayrı-ayrı elm sahələrinin inkişafı nəzərdə tutulur. Bu baxımdan cəmiyyətin inkişafı həmişə ünsiyyət vasitəsi olan dildə öz əksini tapır. Dil müasir ictimai inkişafa özünəməxsus barometr kimi xidmət edir. Yəni, dildə həmin anlayışı ifadə edən vahidləri müəyyənləşdirdikdə isə yeni ifadələrin əmələ gətirilməsi problemindəki çətinliklər praktik cəhətdən aradan qaldırılmış olur. Lüğət tərkibinin Azərbaycan dilinin öz terminləri ilə ifadə olunması Azərbaycan dilində elmi terminologiyanın inkişafına təkan verir. Ona görə də yeni anlayışların ifadəsi üçün terminlər yaradılarkən ən əvvəl ana dilinin lüğət tərkibinə nəzər salmaq, onun daxili imkanlarından səmərəli istifadə etmək lazımdır. Elmi terminologiyanın yaradılması üçün Azərbaycan dili hər cür imkana malikdir. elm və texnikanın sürətli inkişafı ilə əlaqədar olan informasiya həmin sahəyə aid anlayışları ifadə edən terminlərin yaranmasına çox mühüm bir təkan verir.

Terminlər elmin müxtəlif sahələrinin təşəkkülündə əvəzsiz rol oynayır, çünki onlar müəyyən bir elmi anlayışın düzgün qavranılmasında, anlaşılmasında, fikrin dəqiq ifadə və dərk edilməsində, şifahi və yazılı nitqin aydın və dəqiq olmasında, təlim və tədris prosesində, yazı mədəniyyətinin inkişafında, sabitləşməsində xüsusi rol oynayır. Buna görə də terminlərin yaranmasında, orfoqrafiyasında və işlədilməsində vahid qayda və prinsiplər gözlənilməli, onların fonetik tərkib və mənaca müxtəlifliyinə yol verilməməlidir, çünki terminlərin müxtəlif fonetik tərkibdə eyni məna ifadə etməsi və ya eyni fonetik tərkibli terminlərin müxtəlif mənalar bildirməsi elmi-texniki dildə hərc-mərclik yaradar, qarışıqlığa, fikir dolaşıqlığına səbəb olar, onların öyrənilməsi və mənimsənilməsini çətinləşdirər.

Müasir Azərbaycan dili terminologiyası müxtəlif istiqamətlərdə inkişaf edir. Bu istiqamətlər dilin daxili imkanları və alınmalar hesabınadır. İstər dilin daxili imkanları hesabına,

istərsə də digər dillərdən alınmalar hesabına olan termin yaradıcılığı prosesi qəbul olunmuş qayda və normalar əsasında qurulmalıdır. Sözün mənası ilə onun forması arasındakı əlaqə xüsusi əhəmiyyət kəsb edir. Çünki bunlar arasındakı əlaqə ənənəvi motivasiya, motivləşdirmə, motivləşdirilmiş terminlər ilə ifadə olunur. Motivasiya sözün daxili məzmunu və onun komponenetlərinin mənalarının cəmidir.

Termin yaradıcılığında şəkilçilərdən istifadə üsulundan geniş istifadə olunur, belə ki, müasir Azərbaycan ədəbi dilində morfoloji üsulla terminlərin yaradılması üçün münbit şərait var. Dilimizdə mövcud olan sözdüzəldici şəkilçilər söz kökünə artırıldıqda onun mənasına ciddi təsir göstərir. Bu üsulun aktivliyi hər şeydən əvvəl onunla şərtlənir ki, Azərbaycan dili sözdüzəldici şəkilçilərlə zəngindir. Bu müxtəlif şəkilçilərin dilin morfoloji qanunauyğunluqları əsasında dildə yeni söz və ifadə, həmçinin termin yaratması da, şübhəsiz ki, dilin lüğət tərkibinin və terminlər sisteminin zənginləşməsinə təsir göstərir.

Termin yaradıcılığında şəkilçilərin və söz-termin düzəldən ünsürlərin hamısı eyni dərəcədə fəal deyil. Bunlardan bir qismi son dərəcə məhsuldardır. Digər qismi isə dilin daimi inkişafı ilə bağlılığından mütəhərrik funksionallığa malikdir.

Azərbaycan ədəbi dilinin müasir inkişaf mərhələsində sahə terminlərinin yaradılmasında əsasən bu şəkilçilərdən istifadə olunur:

**–çı, –çi, –çu, –çü**

Bu şəkilçi həm Azərbaycan dilində, həm də digər türk dillərində öz aktivliyi ilə seçilir. Bunları həm milli dil vahidlərinə, həm də alınma sözlərə artırmaqla bir sıra yeni termin yaratmaq olar. Həmin şəkilçilər adətən peşə və sənət bildirir: mühafizəçi, layihəçi, təbliğatçı və s.

**–ıcı, –ici, –ucu, –ücü**

Bu şəkilçilər o qədər də fəal deyillər. Əsasən fövqəladə hallara aid terminlərin yaranmasında aktivlik göstərirlər: zəhərləyici, törədici.

Bu şəkilçilər fellərə qoşulduqda, müxtəlif sahə terminləri yarada bilirlər. Bu şəkilçilər həmçinin fellərə əlavə olunaraq ayrı-ayrı proseslər və alətlərin adlarını bildirən terminlər əmələ gətirir: sorucu, qaldırıcı və s. A.Əlizadə qeyd edir ki, **–ıcı, –ici** şəkilçilərini fel kökləri və düzəltmə fellərə artırmaqla keyfiyyət məzmunlu terminlər düzəlir; .. **–ıcı, –ici** şəkilçiləri ilə düzələn terminlər daha çox termin birləşmələrinin komponenti kimi çıxış edir (2, 229-230)

**–cıq, –cik, –cuq, –cük** şəkilçiləri qeyri-məhsuldar şəkilçilərdir ki, onlardan texniki terminlər yaradıcılığında istifadə olunur. Onlar daha çox ümumişlək sözlərə artırılır: yuvacıq, kürəcik.

**–iş, –is, –us, –üş.** Bu şəkilçilər fellərə qoşularaq terminlər yaradır, müxtəlif hərəkət və prosesləri adlandırır: çıxış, eniş, quruluş və s.

**–xana** şəkilçisi müxtəlif nitq hissələrinə artırılaraq adətən məkan anlayışı ifadə edir: qiraətxana, emalatxana və s.

**–ma, –mə** şəkilçiləri terminoloji leksikanın zənginləşməsinə fəal təsir göstərir və elmi-texniki terminlərin yaradılmasında istifadə olunurlar. Bu şəkilçilər həm də hal-hərəkət, proses anlayışı bildirən terminlər əmələ gətirir.

**–lıq, –lik, –luq, –lük**.

Bu şəkilçilər müxtəlif nitq hissələrinə artırılır. İnşaat terminləri yaradıcılığında onlardan geniş istifadə olunur. Bənnalıq, rəngsazlıq, həmkarlıq və s. bu kimi terminlər isimlərə artırılır. Həmin şəkilçilər sifətlərə və saylara da qoşula bilir. Bu zaman müxtəlif tikinti materiallarına aid keyfiyyət, əlamət ifadə olunur: sərtlik, plastiklik, elastiklik və s. Bu göstəricilər digər sözdüzəldici şəkilçilərdən sonra da işlənə bilir. Müasir Azərbaycan ədəbi dilində sözyaratma məhsuldarlığı ilə seçilən **–cı, –lı, –sız** şəkilçilərindən sonra bu şəkilçilərdən istifadə etmək mümkündür: planlılıq, çəkisizlik, qaynaqçılıq və s.

S.Cəfərov yazır ki, dilimizdə istər məna xüsusiyyətlərinə, istərsə də çox söz yarada bilməsinə görə ən məhsuldar sayılan **–lıq, –lik, –luq, –lük** şəkilçilərinə azacıq fonetik dəyişikliyə uğramış bir şəkildə digər türk dillərində təsadüf edilir (1, 158).

**–qac, –ğac, –kəc, –gəc** şəkilçiləri müxtəlif texniki vəsaitin adlandırılmasında fəal rol oynayır. Məs: sayğac, süzgəc və s.

**–an, –ən** şəkilçiləri məhsuldar olmasalar da, sadə terminlərin düzəldilməsi üçün müəyyən qrammatik imkanlara malikdir. Fellərə qoşularaq substantiv isimlərdən ibarət terminlər yaradırlar.

**–dar, -iyyat, –kar, –şünas, –daş, –keş** şəkilçiləri məhdud dairədə işlədilir. Onlar özünü adətən tarixən formalaşmış terminlərin tərkibində göstərir: icarədar, xətkeş, boyakar və s.

Müasir Azərbaycan dilində şəkilçilərdən istifadə yolu ilə termin yaradıcılığının əksər hissələrini feldən düzələn terminlər təşkil edir ki, onlar terminoloji leksikanın zənginləşməsində mühüm rol oynayırlar.

**Ədəbiyyat:**

1. Cəfərov S. Müasir Azərbaycan dili. Bakı, "Maarif", 1982
2. Əlizadə A. Azərbaycan dilində termin yaradıcılığı problemləri. Bakı, 1988
3. Sadıqova S. Azərbaycan dili terminologiyasının nəzəri problemləri. Bakı "Elm", 2002

Т.Халилова

Употребление аффиксов в терминообразовании

Резюме

Развитие науки и техники в Азербайджане сыграло большую роль в образовании научно-технических терминов в литературном языке и в обогащении научной терминологии.

В настоящее время прогрессирование трудовой деятельности, значимость связана с социально-экономической структурой. То есть, говоря о научно-техническом прогрессе, подразумевается развитие техники и терминологии, а также усовершенствование экономической структуры и различных научных областей.

Образование терминов с употреблением аффиксов является самым активным способом в терминообразовании. Причина продуктивности терминообразования этим путем, заключается в том, что азербайджанский язык очень богат лексическими окончаниями, то есть аффиксами.

В современной терминологии азербайджанского языка основную часть составляют термины, образованные от глаголов. Так как глаголы в отличии от некоторых частей речи с точки зрения оттенков семантического значения очень активны, поэтому они выделяются в терминообразовании. Составные термины такого типа составляют основную часть терминологической лексики азербайджанского языка.

Активность употребления аффиксов связана с тем, что наш язык очень богат словообразовательными и словосочинительными лексическими окончаниями. Они способствуют образованию различных научных и технических терминов, и этим оказывают существенную роль в обогащении современной терминологии. В этой статье говорится о некоторых аффиксах отличающихся своей активностью в терминообразовании.

**Ключевые слова: термин, наука, техника, язык, структура**

T.Khalilova

The use of affixes in terminology

Summary

The development of science and technology in Azerbaijan played an important role in the formation of scientific and technical terms in the literary language and in enriching scientific terminology.

Currently, the progress of labor activity, the importance is associated with the socio-economic structure. That is, speaking of scientific and technical progress, we mean the development of technology and terminology, as well as the improvement of the economic structure and various scientific fields.

Formation of terms with the use of affixes is the most active way in term formation. The reason for the productivity of terminology in this way is that the Azerbaijani language is very rich in lexical endings, that is, affixes.

In the modern terminology of the Azerbaijani language, the main part is composed of terms derived from verbs. Since verbs, unlike some parts of speech, are very active from the point of view of the shades of semantic meaning, therefore they are distinguished in term formation. Composite terms of this type form the main part of the terminological vocabulary of the Azerbaijani language.

The activity of using affixes is due to the fact that our language is very rich in word-formative and the word is composed by lexical endings. They contribute to the formation of various scientific and technical terms and thus have a significant role in enriching modern terminology. This article deals with some affixes that differ in their activity in terminology.

Key words: term, science, technology, language, structure

Redaksiyaya daxil olma tarixi: 12.05.2019
Çapa qəbul olunma tarixi: 03.08..2019
Filologiya üzrə fəlsəfə doktoru, Mətanət Əmrahova  tərəfindən çapa tövsiyə olunmuşdur.